# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 56 (Cild I); 2024, № 3, maddə 359) ilə təsdiq edilmiş "Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.6-cı bəndin a) abzasına "təqdim etmək" sözlərindən sonra "(akkreditə edilmiş mərkəz tərəfindən imza sahibinin razılığı ilə dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarından və sistemlərindən əldə etdiyi məlumatlar istisna olmaqla)" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 3.1-1-3.1-3-cü bəndlər əlavə edilsin:

"3.1-1. Xidmətlərin göstərilməsi məsafədən həyata keçirildikdə akkreditə edilmiş mərkəz biometrik identifikasiya vasitəsilə müraciət etmiş şəxsin kimliyini təsdiq edir. Bu zaman şəxsin müraciəti, sertifikatın və imza vasitələrinin istifadə qaydaları, mərkəzin hüquqi statusu və akkreditə vəziyyəti barədə müraciət etmiş şəxsin məlumatlandırılması və müqavilənin imzalanması akkreditə edilmiş mərkəzin proqram təminatı vasitəsilə həyata keçirilir.

3.1-2. Xidmətlərin göstərilməsi biometrik identifikasiya vasitəsilə həyata keçirildikdə, müraciət etmiş şəxsin müəyyənləşdirilməsi üçün aparılan sorğu-axtarış işlərinə dair informasiya və biometrik məlumatlar, həmçinin şəxsin müraciətini əks etdirən videomateriallar akkreditə edilmiş mərkəzin məlumat bazasında saxlanılır.

3.1-3. Xidmətlərin göstərilməsi bu Qaydaların 3.1-1-ci bəndinə uyğun olaraq həyata keçirildikdə akkreditə edilmiş mərkəz tərəfindən bu Qaydaların 3.2-ci bəndində və 16.1-ci bəndi ilə müəyyən edilmiş standartlarda və texniki tələblərdə, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən elektron imzadan istifadə Qaydası"nın 3.2-ci bəndində qeyd edilən sənədlər (məlumatlar) imza sahibinin razılığı ilə dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarından və sistemlərindən əldə edilir. Bu mümkün olmadıqda həmin sənədlər (məlumatlar) müraciət etmiş şəxs tərəfindən elektron qaydada akkreditə edilmiş mərkəzə təqdim olunur.".

3. 3.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.11. Mərkəzdə imza sahibinin şəxsiyyətinin müəyyənləşdirilməsindən sonra o, verilənlər daşıyıcısında və ya məsafədən idarə edilən imza vasitəsində təqdim edilmiş imza yaratma və yoxlama məlumatlarının, kağız daşıyıcıdakı və ya elektron formada sertifikatın alınmasını, həmçinin Mərkəz tərəfindən məlumatlandırılmanın aparılmasını kağız və ya elektron jurnallarda təsdiq edir.".

4. Aşağıdakı məzmunda 7.1-1-ci bənd əlavə edilsin:

"7.1-1. Mərkəz elektron imza yaratma məlumatlarını verilənlər daşıyıcısı (elektron imza tokeni, təhlükəsizliyi təmin edən parollu plastik kart və s.) formasında olan imza vasitəsində və ya məsafədən idarə olunan və təhlükəsizliyi təmin edən imza vasitəsində (mobil cihaz və s.) təqdim edir.".

5. 16-cı hissənin adında "SƏNƏDLƏR" sözü "TƏLƏBLƏR" sözü ilə əvəz edilsin.

6. 16.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"16.1. Mərkəzlər fəaliyyətində aşağıdakı standartlara və texniki tələblərə riayət etməlidirlər:

| Sıra №-si | Fəaliyyət sahələri | Standartlar və texniki tələblər |
|---|---|---|
| 1 | 2 | 3 |
| 16.1.1. | Akkreditə edilmiş Mərkəzin fəaliyyətinin ümumi təşkili | Sertifikat Xidmətləri Mərkəzləri üçün Vebtrast (WebTrust) prinsipləri və kriteriyası 2.0 və ya daha sonrakı versiyaları<br><br>ETSI EN 319 411-1<br>ETSI EN 319 411-2 |
| 16.1.2. | Mərkəzlər üçün siyasət və təhlükəsizlik tələbləri | Sertifikat Xidmətləri Mərkəzləri üçün Vebtrast (WebTrust) prinsipləri və kriteriyası 2.0 və ya daha sonrakı versiyaları |
| 16.1.3. | İnformasiya sisteminin təhlükəsizli-yinin auditi və ekspertizası standartı | Sertifikat Xidmətləri Mərkəzləri üçün Vebtrast (WebTrust) prinsipləri və kriteriyaları 2.0 və ya daha sonrakı versiyaları |

| | | |
|---|---|---|
| | | ETSI EN 319 411-1<br>ETSI EN 319 411-2 |
| 16.1.4. | Təkmil sertifikatlar | ETSI EN 319 412-1 V1.4.4 (2021-05);<br>ETSI EN 319 412-2 V2.3.1 (2023-09);<br>ETSI EN 319 412-3 V1.2.1 (2020-07);<br>ETSI EN 319 412-5 V2.3.1 (2020-04);<br>ITU-T Rec. X-509 (10/2019);<br>ITU-T Rec. X-509 (2019)/Cor.1 (10/2021) |
| 16.1.5. | Gücləndirilmiş elektron imza yaratma məlumatları | ETSI EN 319 102-1 V1.3.1 (2021-11);<br>CSN EN 419211-1:2014;<br>CSN EN 419211-2:2013;<br>CSN EN 419211-3:2013;<br>CSN EN 419211-4:2013;<br>CSN EN 419211-5:2013;<br>CSN EN 419211-6:2014;<br>ISO/IEC 15408-1:2022;<br>ISO/IEC 15408-2:2022;<br>ISO/IEC 15408-3:2022 |
| 16.1.6. | Elektron imzanın əsas profilləri: | |
| 16.1.6.1. | XML gücləşdirilmiş elektron imza (XAdES) | ETSI EN 319 132-1 V1.2.1 (2022-02);<br>ETSI EN 319 132-2 V1.1.1 (2016-04) |
| 16.1.6.2. | CMS gücləşdirilmiş elektron imza (CAdES) | ETSI EN 319 122-1 V1.2.1 (2021-10);<br>ETSI EN 319 122-2 V1.1.1 (2016-04) |
| 16.1.6.3. | PDF gücləşdirilmiş elektron imza (PAdES) | ETSI EN 319 142-1 V1.1.1 (2016-04);<br>ETSI EN 319 142-2 V1.1.1 (2016-04) |
| 16.1.6.4. | Əlaqəli İmza Saxlayıcısı (ASiC) | ETSI EN 319 162-1 V1.1.1 (2016-04);<br>ETSI EN 319 162-2 V1.1.1 (2016-04) |
| 16.1.7. | Elektron imza elektron eyniləşdirmə və elektron autentifikasiya kimi | CEN/TR 419010:2017 |
| 16.1.8. | İmza sahibinin kimliyinin yoxlanılması | ETSI TR 119 460 V1.1.1 (2021-02) |
| 16.1.9. | İmza sahibinin imza yaratma və yoxlama məlumatları | RSA - ən azı 2048 bit və ya<br>DSA - ən azı 2048 bit və ya<br>DSA elliptik əyrisi - ən azı 256 bit;<br>Heş funksiya - ən azı SHA-256 |
| 16.1.10. | Akkreditə edilmiş Mərkəzin imza yaratma və yoxlama məlumatları | RSA - ən azı 2048 bit və ya<br>DSA - ən azı 2048 bit və ya<br>DSA elliptik əyrisi - ən azı 256 bit;<br>Heş funksiya - ən azı SHA-256 |

| | | |
|---|---|---|
| 16.1.11. | Elektron imzanın yoxlanılması | CEN/TS 419221-1:2016 |
| 16.1.12. | İmza yaratma və yoxlama proseduru | ETSI EN 319 412-1 V1.4.4 (2021-05);<br>ETSI EN 319 412-2 V2.1.1 (2020-07);<br>ETSI EN 319 412-3 V1.2.1 (2020-07);<br>ETSI EN 319 412-5 V2.3.1 (2020-04);<br>DÜİST 34.10-2018 |
| 16.1.13. | Heş funksiya | FIPS 180-4 (08/15/2012) |
| 16.1.14. | Vaxt göstəriciləri və xidmətləri | ETSI EN 319 422 V1.1.1 (2016-03) |
| 16.1.15. | Vaxt göstəricilərinin qeyd edilmə qaydası | ETSI EN 319 421 V1.1.1 (2016-03) |
| 16.1.16. | Alqoritmlər və parametrlər | ETSI SR 002 176 |
| 16.1.17. | “Sertifikat siyasəti” və “Sertifikatın tətbiqi qaydaları” | RFC 3647 |
| 16.1.18. | Ləğv edilmiş sertifikatların reyestri | RFC 5280;<br>RFC 6818;<br>RFC 8398;<br>RFC 8399 |
| 16.1.19. | İmza yaratma məlumatlarının yaradılması, saxlanılması və ya istifadəsi | ETSI EN 319 102-1 V1.3.1 (2021-11);<br>ETSI TS 119 431-1 V1.2.1 (2021-05);<br>ETSI TS 119 432 V1.2.1 (2020-10) |
| 16.1.20. | Sertifikatın verilməsi sorğusunun formatı | PKCS#10 |
| 16.1.21. | Sertifikatın vəziyyətinin real vaxt rejimində yoxlanılması protokolu | RFC 6960;<br>RFC 8954 |

7. 16.2-ci bənd ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 22 ” “ oktyabr ” 2024-cü il

№ 461